*Keçmişi unutma,*
*o, gələcəyin müəllimidir...*

AZƏRBAYCAN TARİX QURUMU

TOFİQ MUSTAFAZADƏ

# ÜMUMİ TARİX

## I KİTAB

(Ən qədim zamanlardan XVIII əsrin sonunadək)

Kitab BDU-nun Tarix fakültəsinin Elmi Şurasında, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodik Şurasında müzakirə olunaraq dərs vəsaiti kimi tövsiyyə olunmuş və Azərbaycan Respublikası Təhsil Nazirinin 25.02.2008-ci il tarixli 267 saylı əmri ilə qrif verilmişdir.

BAKI - "İqtisad Universiteti Nəşriyyatı"-2009

6674

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.3(0)
M 85

**Elmi məsləhətçi:** **Y. M. Mahmudov**
*Azərbaycan MEA-nın müxbir üzvü*

**Redaktorlar:** **M.N.Mirzəyev**
*tarix elmləri namizədi, dosent*

**Q.Əliyev**
*tarix elmləri doktoru, professor*

**G. Nəcəfli**
*tarix elmləri namizədi*

**Y.Gözəlova**
*tarix elmləri namizədi, dosent*

**Tofiq Mustafazadə**. Ümumi Tarix
(Ən qədim zamanlardan XVIII əsrin sonunadək).

**Bakı: "İqtisad Universiteti nəşriyyatı", 2009, səh 1152.**

Müəllif tarix elminin son nailiyyətlərini əks etdirməyə çalışmış, Azərbaycanın, qonşu ölkələrin tarixini və ümumdünya tarixini bir yerdə sinxron şəkildə şərh etmişdir.

Kitab geniş oxucu kütləsi - orta məktəb müəllimləri və şagirdləri, ali məktəb tələbələri və ümumiyyətlə tarixlə maraqlanan hər kəs üçün nəzərdə tutulmuşdur.

# OXUCUYA

**Hörmətli oxucu!**

Bir 1995-1998-ci illərdə Azərbaycanda ilk dəfə olaraq Ən qədim çağlardan yaşadığımız günədək dünya tarixini (tərkibində Azərbaycan tarixi də olmaqla) dörd cildlik kitab şəklində nəşr etdirdik. Zənnimizcə bəşəriyyətin yaranmasından günümüzədək tarixi inkişaf prosesini xronoloji ardıcıllıqla bütövlükdə, ümumdünya miqyasnda təsvir etmək elmi cəhətdən doğru addımdır. Bu, oxucuda həm ümumdünya tarixi barədə, həm də ayrı-ayrı xalqların tarixi haqqında təsəvvür yaratmağa kömək edir.

Son on ildə tarix elmi daha da inkişaf etmiş, respublikamızda orta ümumtəhsil məktəbləri üçün ümumitarix üzrə yüksək səviyyədə dərsliklər yaradılmışdır. Bununla belə , biz hesab edirik ki, ümumi tarixə aid ümumiləşdirici, həm də dərsliklərdən daha əhatəli əsərin yazılmasına ehtiyac vardır.

Bunu nəzərə alaraq biz, həm ali məktəblərin humanitar fakültələrinnin tələbələri, həm də ümumiyyətlə tarixi öyrənənlərə kömək ola biləcək bir vəsaiti yaratmağı qarşımıza məqsəd qoyduq.

Hörməti oxucu, biz çalışmışıq ki, iki kitabdan ibarət olacaq bu işimizdə dünya tarix elminin son nailiyyətlərini imkan daxilində əks etdirək, köhnəlikdən qaçınaq, tarixə yeni tərzdə yanaşaq. Lakin əlbəttə ki, birdən-birə köhnəliyin qalıqlarından azad olmaq çətindir və biz əvvəldən oxucudan kitada rast gələcəyi bu cür qalıqlara görə üzr istəyirik. Kitab yəqin ki, həm d müxtəlif yanaşmaların eklektik birləşdirilməsi təsiri bağışlayacaq. Nə etməli, bu günədək tarixə vahid yanaşma mükəmməl tarix nəzəriyyəsi formalaşmadığında günümüzdə geniş yayılmış bu xəstəlikdən qaçınmaq, dünya tarixinin bütün təzahürləri yeni (daha doğrusu sivilizasion) yanaşma əsasında şərh etmək mümkün deyil. Buna görə də, bir daha çox çalışmışıq ki, anlaşıqlı dillə, tarixçilərin aşkara çıxardığı yeni və maraqlı faktları da əlavə etməklə dünya tarixinin ümumi nəzəriyyəsini yaradaq. Bizim fikirlərimiz oxucunu qane etmədiyi halda faktları araşdırmaqla o, özü lazımi nəticəni çıxara bilər. Gələcəkdə, əgər ömür vəfa etsə bu nöqsanları aradan qaldırmaqla dünya sivilizasiyaları tarixi haqqında ümumiləşdirici və daha çox düşündürücü bir əsəri sevimli oxucularımıza təqdim etmək niyyətindəyik.

*Tofiq Mustafazadə*
tar. e. d., professor,
Azərbaycan Tarix Qurumunun sədri



İnsanların keçmişdə necə yaşadığını, onların əməyi ilə yerin necə dəyişdiyini, həyatlarının necə və nə üçün indiki şəklə düşdüyünü zaman və yer baxımından tədqiq edib öyrənən elm tarix adlanır. Qədim yunan sözü olan "istoriya", yəni tarix, tədqiqat və hadisələr haqqında hekayə deməkdir.

Tarixin tədqiqat metodu digər elmlərin tədqiqat metodundan əsaslı sürətdə fərqlənir. Digər elmlər gerçəkliyi müşahidələr, sınaqlar keçirmək yolu ilə öyrəndikləri halda, cəmiyyətin keçmişini, keçmişdə baş vermiş hadisələri bərpa və müşahidə etmək imkanı yoxdur. Yer üzündə insanların həyatı izsiz keçmir, özündən sonra iz qoyur. Buna görə də tarixi hadisələr yalnız keçmişdən qalma izlər - qaynaqlar (mənbələr) əsasında öyrənilir.

Tarixi qaynaqlar iki yerə: yazılı və maddi qaynaqlara bölünür. Alimlərin tarix haqqında bilik əldə etdiyi yazılar ən vacib qaynaqlar olub, yazılı tarixi qaynaq və ya tarixi sənəd adlanır. İnsanların hələ yazısı olmadığı çox qədim zamanlardan əşyaları, şəkilləri, tikililəri qalmışdır ki, onların da əsasında qədim insanların yaşayışı haqqında təsəvvür əldə etmək olur. Bunlar maddi tarixi qaynaqlar adlanırlar. Maddi tarixi qaynaqları arxeologiya öyrənir. Mənası "qədim zamanlar haqqında elm" deməkdir. Qazıntı işləri aparıb, maddi mənbələri öyrənən alimlər arxeoloq adlanır.

Tarixin daha bir neçə yardımçı elmi vardır: xronologiya - tarixdə baş vermiş hadisələrin vaxtını ardıcıllıqla öyrənən köməkçi elmdir; etnoqrafiya - keçmiş zamanlardakı və bu günkü insan birliklərinin aid olduğu irqlərdən, millətlərdən, onların adət-ənənələrindən bəhs edir; paleoqrafiya - qədim yazıları öyrənir; epiqrafiya - bərk materiallar, o cümlədən binalar, məzar daşları və s. üzərindəki yazıları öyrənir; diplomatika fərman və bəratları, numizmatika qədim pul sikkələrini öyrənir.

Tarixi oxumaq və öyrənmək çox faydalıdır. Tarix insanların mühakimələrini qüvvətləndirir, onların mədəni səviyyəsini yüksəldir. Tarix insanda ailə, millət, vətən sevgisi yaradır. Tarixi oxumaqla insan keçmiş hadisələrdən dərs alır. Bununla keçmişdə buraxılmış kobud səhvlərin təkrarlanması ehtimalı azalır. Bu baxımdan tarix böyük bir ibrət dərsidir.

Tarix ümumi tarixə və xüsusi tarixlərə bölünür; ümumi tarix yer üzərində yaşayan bütün insan toplularının siyasi həyatını, mədəniyyət və ictimai-iqtisadi və mədəni keçmişini öyrənir. Ayrı-ayrı ölkələrin tarixi də var (məsələn, Azərbaycan tarixi, Türkiyə tarixi, İran tarixi və s.); tarixin daha xırda növləri də vardır: ayrı-ayrı sənətlərin, elmlərin, şəhərlərin tarixi və s.

Bu gün tarixi tədqiqatın iki əsas modeli məlumdur.

Birinci model ümumdünya tarixi prosesin monist (vahid) intrepretasiyasına əsaslanır. Bu model dünya tarixini universal, fasiləsiz, tam birxətli təzahür kimi təsvir edir. Əsasən marksizmin müdafiə etdiyi belə model tarixi zamanı mərhələlərə, dövrlərə bölməyə, onu dövrləşdirməyə imkan verir.

Tarixi tədqiqatın ikinci modeli ümumdünya tarixi prosesinin çoxşaxəliliyinə, onun plüarilizminə əsaslanır. Bu təsəvvürdə dünya özünəməxsus mədəniyyəti olan məkanca məhdud cəmiyyətlərdən (mədəni-tarixi tipli, yaxud lokal svilizasiyalardan) ibarətdir.

Cəmiyyət haqqında marksist təsəvvürlərinin mühüm cəhətləri ümumdünya tarixi prosesin vəhdəti və onun universallığıdır. Cəmiyyətdə obyektiv qanunlar fəaliyyət göstərir, onları nəinki dərk etmək mümkündür, həm də zəruridir. Marksizm nəzəriyyəsinin tərəfdarları öz diqqətlərini obyektiv və qanunauyğunun öyrənilməsinə cəmləyirlər. Bəşəriyyətin inkişafının məhz bu ümumi qanunları dünyanın vəhdətini təmin edir.

Marksist konsepsiyasında bəşəriyyət tarixi formasiya adlandırılan müəyyən mərhələlərin, pillələrin yaranması, inkişafı və əvəzlənməsi kimi təqdim olunur. Bu kateqoriya marksizmdə fundamental əhəmiyyətə malikdir və hakim mülkiyyət forması ilə müəyyən olunur.

İctimai-iqtisadi formasiya deyildikdə ictimai həyatın bütün sahələri (iqtisadi, sosial, siyasi, mədəni və s. anlaşılır). Formasiyada məhsuldar qüvvələr və istehsal münasibətləri həlledici rol oynayır. Bunlar istehsal üsulunu, yaxud cəmiyyətin bazisini təşkil edirlər. İstehsal usulunun üzərində ideoloji, dini, hüquqi, mədəni və insan cəmiyyətinin digər formaları qurulur.

Marksist baxışlar sistemində iqtisadi amil həlledici rol oynayır, o digər sosial və mənəvi təzahürləri müəyyən edir: "İctimai varlıq şüuru təyin edir".

Çox mürəkkəb olan formasiyaların dəyişməsi prosesi öz obyektiv qanunları əsasında baş verir. Keçid sosial inqilab yolu ilə olur. Bu proses mütərəqqi istiqamət daşıyır, yəni bəşəriyyət nisbətən aşağı inkişaf mərhələlərindən daha yüksək mərhələlərə doğru irəliləyir.

Belə bir nəticə çıxarırırdı ki, bütün bəşəriyyət bəzi istisnalar olmaqla bu mərhələləri keçmiş və ya keçəcəkdir. Beləliklə, formasiyalar nəzəriyyəsi ümumdünya tarixini dövrləşdirmək üçün əsas verir.

Marksizm nəzəriyyəsi yaxşı inkişaf etdirilmiş və öz kateqoriyaları var (bazis, üstqurum, formasiya, istehsal üsulu, sosial inqilab və s.). Bu nəzəriyyə ictimai həyatın sinfi mübarizə, sosial inqilab, ictimai antoqonizm, siyasi nəzəriyyələr, ideologiyalar kimi tərəflərinə üstünlük verərək onları cəmiyyətin ən başlıca xarakteristikası sayırdı.

Qeyd edək ki, Marks özü formasion inkişaf sistemi ilə real ictimai formaların rəngarəngliyi arasındakı ziddiyyəti görməmiş deyildi. Yəqin ki, buna görədir ki, o, quldarlıq istehsal üsulundan daha çox "antik formasiya"dan danışmağı üstün tuturdu. Həm də bu ifadəni heç də sinonim hesab etmirdi. Çünki, Marks dəfələrlə qeyd etmişdi ki, antik cəmiyyətin əsasını qulların əməyi deyil, azad kəndlilər və sənətkarların əməyi təşkil etmişdir. Marks bəzən "Asiya istehsal üsulu" ifadəsini də işlətmişdir.

Sivilizasiya ifadəsi mənası vətəndaş olan latın " civis" sözündən götürülmüşdür. İlk vaxtlar sivilizasiya anlayışında barbarlıqdan sonra gələn insanların özləri kimiləri ilə birlikdə nizamlanmış birgə hərəkətlərinə əsaslanan mədəniyyət başa düşülürdü. Avropada sivilizasiya anlayışı XVIII əsrin ortalarından tez-tez işlədilməyə başlanmışdır. Maarifçilər ağıl və ədalət prinsiplərinə əsaslanan cəmiyyəti sivilizasiya hesab edirdilər.

XIX əsrin ortalarından isə sivilizasiya dedikdə hər bir xalqın maddi və mənəvi həyatı başa düşülməyə başlandı. Elmin inkişafı ilə sivilizasiya haqqında təsəvvürlər genişləndi. Bu gün sivilizasiyanın yüzlərlə mənası var və onları aşağıdakı şəkildə qruplaşdırmaq olar: a) Sivilizasiya dedikdə vəhşilik və barbarlıqdan sonra gələn bəşəriyyətin inkişaf mərhələsi nəzərdə tutulur. Bu mərhələ dövlətlərin yaranması, şəhərlərin salınması, yazının meydana gəlməsi və s. ilə səciyyələnir, b) Sivilizasiya dedikdə bioloji həyatdan fərqlənən həyat, yəni bütün bəşər həyatı nəzərdə tutulur.

Sivilizasiyaların məkan üzrə təsnifatı onların mövcudluğunun coğrafi, ərazi-iqlim aspektlərini yaxşı anlamağa kömək edir. Ənənəvi olaraq Qərb (avropa və Şimali Amerika) və Şərq (Hind, Çin, Misir və s.) sivilizasiyaları, habelə Latın Amerikası, Tropik Afrika, Avstraliya və s. sivilizasiyaları müəyyənləşdirirlər.

Hər bir sivilizasiyaya müəyyən iqlim xasdır. İqlim torpağın münbitliyinə təsir edir.

Sivilizasiyanın təşkilatının səciyyəvi cəhətlərini bilmək öyrənilən təzahürə sivilizasiyasının əsas dəyərləri və prioritetləri prizmasından baxmağa imkan verər.

Hələ XX əsrin əvvələrində N.Y. Danilevski sivilizasiyanın Misir, Çin, Babilistian, Hindistian, İran, Yəhudi, Yunan, Roma, Roman-German və digər tipərini müəyyənləşdirmişdir. O bu zaman ilk dörd sivilizasiyanı ilkin, yaxud hazırlıq sivilizasiyaları kimi dəyərləndirmişdir. Danilevskiyə görə Yəhudi sivilizasiyası dini fəaliyyətdə, Yunan sivilizasiyası mədəniyyətdə, Roma tipi isə siyasətdə özünü göstərmişdi. Yenə Danilevskiyə görə roman-german tipi hər dörd fəaliyyət növündə özünü göstərmiş, lakin imkanlarını bütünlüklə reallaşdıra bilməmişdi.

Danilevskinin baxışlarına görə mədəni-tarixi prosesin məqsədi ondan ibarətdir ki, konkret cəmiyyət öz fərdiliyini maksimal reallaşdırsın, sonra bütün imkanlarını tükədib yerini yeni mədəni tarixi tipə versin.

Məşhur alman alimi Osvald Şpenqler (1880-1936) 1917 - ci ildə " Avropanın qürubu" adlı kitabında ümumdünya tarixinin qədim dünya, orta əsrlər və yeni dövrə bölünməsi prinsiplərini bir kənara ataraq bildirdi ki, ümudünya tarixi bir sıra müstəqil, təkrarolunmaz, qapalı, mədəni, öz fərdi müqəddaratı olan mədəniyyətlərə bölünür. Şpenqlərə görə bütün mədəniyyətlərin özünə məxsus fizionomiyası var və faktiki olaraq bir-birlərinə nüfuz edə bilmirlər. Alim dünya tarixində 8 mədəniyyət müəyyənləşdirmişdir: Misir, Hindistan, Babilistan, Çin, Yunan-Roma, Bizans - Ərəb, Qərbi Avropa və Mayya.

Şpenqler sivilizasiya termiinindən mədəniyyətin inkişaf mərhələlərini bildirmək üçün istifadə edirdi. Sivilizasiya "mədəniyyətin inkişafının son mərhələsidir", "mədəniyyətin məntiqi nəticəsi, tamamlanması və sonudur" deyirdi: Yəni hər bir mədəniyyətin öz sivilizasiyası var. Qərbi Avropa mədəniyyətini xüsusi olaraq öyrənən Şpenqler Qərbi Avropa mədəniyyətinin müasir səviyyəsini sivilizasiya hesab etmişdir. Kitabın adı -"Avropanın qürubu" da burdan doğmuşdur.

Şpenqlerə görə hər bir mədəniyyət təxminən 1000 illik bir sikl keçirir. İnkişaf skilini keçib qurtarandan sonra mədəniyyət ölmür, mövcudluğunu davam etdirir, ancaq bu zaman artıq adamlar dolğun mənəvi həyat keçirmir, sırf bioloji mövcud olurlar.

Sivilizasiya mədəniyyətin mövcud olduğu 1000 ilin 200-300 ilini əhatə edir. Müxtəlif mədəniyyətlərdə sivilizasiya mərhələsinə keçid müxtəlif vaxtlarda baş verir. Məsələn, antik mədəniyyət sivilizasiyaya IV əsrdə, Qərb mədəniyyəti isə sivilizasiyaya XIX əsrdə keçmişdir.

Hər bir mədəniyyətin varlıq yolu tale tərəfindən proqramlaşdırılmışdır, onun konkret məzmunu isə zahiri təzahürü mədəniyyət olan spesfik ruhla müəyyən olunur. Hər bir mədəniyyətin fərdiliyi və təkraredilməzliyi xüsusi ruhla təyin olunur. Şpenqler mədəniyyətlərin ruhlarını da müəyyən etməyə çalışmışdır. Ona görə antik mədəniyyətin əsasında Appolon ruhu, ərəb mədəniyyətinin əsasında sehrli ruh, qərb mədəniyyətinin əsasında Faust ruhu durur.

Şpenqler tarixi dərk etməyin vasitəsi kimi analogiya metodunu elan etmişdi. O, iddia edirdi ki, bir mədəni ailənin inkişaf mərhələsini digərləri ilə müqayisədə müəyyənləşdirmək olar.

Sivilizasiyalar nəzəriyyəsinin inkişaf etdirilməsində ingilis tarixçisi Arnold Toynbinin ( 1889-1975) böyük rolu olmuşdur. O öz görüşlərini "Tarixin dərk olnuması" adlı əsərində şərh etmişdir.

A. Toynbi ruhani mütəfəkkiri olmuşdur və buna görə də onun üçün bəşər tarixi Allah iradəsinin gerçəkləşməsidir. Bu mənada dünya vəhdətdir. Lakin Toynbi vahid dünya sivilizasiyasını, tarixin qədim orta və yeni dövrlərə bölünməsini rədd edir.

Toynbi dünyanı müəyyən əlamətləri olan lokal sivilizasiyalardan ibarət təsəvvür edir. Bu əlamətlər çoxdur, ancaq onların ikisi əsasdır. Din onun təşkilat formaları ilə birlikdə və sözü gedən sivilizasiyanın ilkin yarandığı yerdən uzaqlıq dərəcəsi. Toynbi lokal sivilizasiyaları "tarixi tədqiqatın dərk olunan sahəsi" də adlandırmışdır.

A. Toynbi sivilizasiyaların inkişaf qanununu "Çağırışa cavab" adlandırmışdır. O yazırdı: " Mən hesab edirəm ki, ardıcıl çağırışlara uğurlu cavab verməklə sivilizasiyalar yaranır və inkişaf edirlər. Onlar cavab verə bilmədikləri çağırışlarla qarşılaşdıqda sınır və dağılırlar"

Sivilizasiyalar məkan və zaman daxilində mövcuddurlar, onların ritmi müxtəlifdir, inkişaf mərhələləri uyğun gəlmir. Bəs onları necə müqayisə etmək olar? Toynbi hesab edirdi ki, zaman kəsikləri subyektiv ölçülərdə böyük görünə bilər, planetar miqyasda bu ölçülər kiçikdir və onları nəzərə almamaq olar. Deməli yunan və Roma sivilizasiyasını bu günkü qərb sivilizasiyası ilə tamamilə müqayisə etmək olar.

Toynbinin təklif etdiyi sivilizasiyalar tipi çox mürəkkəbdir, onların sayı daim dəyişmişdir (21-dən 8-ə kimi), onun bir təsnifatına görə sivilizasiaylar tam çiçəklənməyə çatmış (Misir, Şumer, Qərbi Avropa), "donmuş" (eskimoslar, nomadlar, Sparta) və "inkişaf etmiş" (Skandinav) sivilizasiyalara bölünür. Digər təsnifatına görə isə sivilizasiyalar diri (qərb xristianlığı, provaslav xristianlığı, islam dünyası, iudaizm dünyası, Uzaq şərq dünyası) və ölüb getmiş sivilizasiyalar (Mina, Şumer, Het, Babil, And və Yukatan).

Sivilizasion yanaşma çərçivəsində daim axtarışlar getmiş, yeni isiqamətlər formalaşmışdır. "Mədəni - tarixi tip" tədricən "lokal sivilizasiya" anlayışı ilə əvəz olundu.

"Annallar məktəbi" sivilizasiyalar nəzəriyyəsinin inkişaf etdirilməsində mühüm rol oynamışdır. 1929-cu ildə iki fransız tarixçisi Mark Blok ( 1886-1944) və Lüseyn Devr (1878-1956) "Sosial tarixin annalları" jurnalını təsis etmişlər. Blok özünün "Tarixin apologiyası, yaxud tarixçinin sənəti" adlı əsərində, Fevr isə "Tarix uğrunda döyüşlər" əsərində öz görüşlərini şərh etmiş, sonralar ardıcılları həmin görüşləri inkişaf etdirmişlər.

Qeyd olunan istiqamətin nümayəndələri sivilizasiya anlayışı altında həyat tərzi və mental tipində ifadə olunmuş sosial - mədəni tamları nəzərdə tuturlar. Onlar əsas diqqətlərini orta əsr sivilizasiyasının tədqiqinə yönəltmişdilər.

"Annallar məktəbi"nin ardıcılı Ternan Brodel (1902-1985) tarixdə xüsusi tamlar görür və onları ifadə etmək üçün "dünya-iqtisadiyyat" ifadəsini tətbiq edir. "Dünya - iqtisadiyyat" ifadəsi altında Brodel planetin özünü elə təmin etməyə qadir olan hissəsini nəzərdə tutur ki, hissə daxilindəki əlaqər və mübadilə üzvi vəhdət yaradır. Bu cür "iqtisadi dünyalar" içərisində müəllif Aralıq dənizi, Avropa, Uzaq Şərq, Rusiyanın adını çəkir.

Brodelin təsəvvürünə görə tarix geniş ərazilərdə iqtisadi dünyalar və böyük zaman kəsiklərində dərin sturktur dəyişikliklərindən ibarətdir. Bu istiqaməti "qlobal tarix" adlandırırlar.

"Dünya (qlobal) tarixi" konsepsiyasında bəşəriyyət tarixinə bütün səviyyələrdə, insanların həyatının bütün sahələrində qloballığın özünü göstərdiyi bir proses kimi baxılır. Bu çox mürəkkəbdir. Çünki dünya tarixinin inkişaf məntiqi ayrıca bir xalqın inkişaf məntiqi ilə uyğun gəlmir və gələ də bilməz. Dünya prosesinin özü dəyişir. XX əsrin sonunda hərtərəfli əlaqələrin intensiv inkişafı, insanın kosmosa uçuşu ilə dünya və bəşəriyyətin tamlığı haqqında təsəvvür yaranır. Dünyaya müxtəlif cəmiyyətlər, mədəniyyətlər, dövlətlər, iqtisadiyyatlar, sosial birliklər və fərdlər arasında əlaqələrin cəmi ilə onların yaşayış mühiti ilə əlaqəsi kimi baxmaq olar.

"Annallar məktəbi"nin nümayəndələri tarixi tədqiqatın predmetini özünə məxsus şəkildə müəyyən edirdilər. Onlar iki tip reallığın olması müddəasından çıxış edirlər. "Həqiqi reallıq və keçmişin insanları arasında bu reallığın təsəvvürü". İnsanların bu təsəvvürü mentallıq termini ilə ifadə olunurdu.

Adı çəkilən məktəbin nümayəndələri bir sıra yeni tarixi tədqiqat prinsipləri irəli sürmüşdülər. Tarixi tədqiqatda hakim olan nəqli təsvirin yerinə "tarix- problemi" prinsipi gəlir. Tarixçi müasirliyə arxalanaraq problemi seçir, mənbələr dairəsini müəyyənləşdirir və bunun əsasında " digər dövrün insanları ilə səmərəli dialoqa girir".

"Annallar məktəbi"nin nümayəndələrinin irəli sürdüyü digər prinsipi polipredmetlilik, yaxud fənlər arası sintez kimi müəyyən etmək olar. Həmin prinsipə görə tarix elmi digər elmlərin nəzəri modelləri ilə, tədqiqat metodları ilə zənginləşdirilməlidir. Bu istiqamətin nümayəndələri tarixi müxtəlif elmlərdən: coğrafiya, torpaqşünaslıq, iqlimşünaslıq, biologiya, demoqrafiya, tibb, psixiatritya və s. elmlərdən alınmış məlumatlarla zənginləşdirmişlər. Tarixin dərki tarixçinin mənbə ilə dialoqudur, tarixçinin dərketmə qabiliyyəti isə tədqiq olunan obyektlərin və tarixi faktların bərpa olunması, onların komplektləşdirilməsi və intrepretasiyasıdır.

Tarixi tədqiqatın yeni prinsiplərini irəli sürən "Annallar" məktəbi nümayəndələri tarixçinin yaradıcılıq fəaliyyətini irəli sürmüşlər. Onların fikrincə tarixçi qədim məlumatların passiv toplayıcısı deyil, onun fəallığı yeni metodlar, üsullar, yanaşmalar axtarışında, keçmişə suallar vermək bacarığında özünü göstərir.

"Annallar məktəbi"ndə rus alimi Lev Nikolayeviç Qumilyovun (1912-1992) konsepsiyası mühüm yer tutur. O, "Etnogenez və yerin biosferası", "Uydurma şahlığın axtarışında", "Qədim Rus və böyük Çöl" və s. əsərlərində öz baxışlarını şərh etmişdir.

Qumilyova görə landşaftların və mədəniyyətlərin tarixi bir-biriləri ilə əlaqədə ayrı-ayrı etnosların tarixi kimi təsəvvür oluna bilər. Qumilyova görə etnogenez - dörd fazalı (yaranma, yüksəliş, tənəzzül, ölmə) proses keçirilir.

Beləliklə, etnik tarix adiskrefdir, yəni qırılandır. Hər bir etnosun əvvəli və sonu var (insan kimi). Etnos doğulur kişiləşir, qocalır və ölür. Etnosun həyat uzunluğu Qumilyova görə təqribən 1,5 min il təşkil edir.

Qumilyov diaxroniya - bir neçə obyektin (konkret halda etnosların) vaxt etibarilə uyğun gəlməməsi prinsipini əsaslandırmışdır. Hər etnosun yaşı müxtəlif olduğu üçün onlar müqayisə edilərsə ehtiyatlı olmaq lazımdır. O yazırdı: "buna görə də "gerilik" yaxud "vəhşilik" ideyası yalnız sinxron zaman şkalasının istifadəsi zamanı tətbiq oluna bilər, əslində müxtəlif yaşı olan etnosları guya həmyaşları olan kimi müqayisə edirlər. Ancaq bu professor və tələbəni, fərqi yoxdur hər hansı əlamətə görə: ya erudisiya dərəcəsinə, ya fiziki qüvvəsinə, yaxud da başındakı tüklərin sayına görə olsun, müqayisə etmək kimi mənasızdır.

Ancaq diaxroniya prinsipini - yaşa görə hesabı - qəbul etsək, tələbəni professorla onların yeddi yaşları olduğu zaman müqayisə etsək, o zaman - müqayisənin mənası və elmi prespektivi olacaq.

Qumilyova görə etnosun həyat dövrlərinin başlanmasının səbəbi etnosları hərəkətə gətirən "passionar təkanlar" dır. Bu təkanlar yer kürəsindən kənardan gəlirlər və planetin maqnit sahəsinin dəyişməsindən asılıdırlar. Alim burada bir qanunauyğunluq görürdü. Passionar təkanları günəş fəallığının minimum olduğu, yaxud onun azaldığı dövrlərə uyğun gəlir, çünki günəş fəallığı azalanda yer ionosfrerinin müdafiə xüsusiyyətləri zəifləyir və şüa dəstələri Yerin səthinə çata bilər.

Passionar daşıyıcıları etnosun cüzi hissələrini təşkil edirlər. Passionnarilər (passionar daşıyıcıları) elə adamlardır ki, onların ideal məqsədə doğru can atmaları həm fərdi, həm də özünü qorumaq instinkindən güclüdür. Qumilyov passionnarilər sırasına Makedoniyalı İskəndəri, Sullani, Yan Qusu, Janna d Arkı, Napoleon Bonapartı və protopop Avvakumu daxil etmişdir. Qumilyov passionari məsələsini yalnız ortaya qoymuşdur.

Alim öz etnoslar nəzəriyyəsində insanın biosfera ilə qarşılıqlı təsirinə böyük diqqət yetirirdi. O hesab edirdi ki, yaxın kosmosun yerüstü təzahürlərə təsiri paradoks deyil, trüizmdir.

Qumilyov belə hesab edirdi ki, ümumbəşəri mədəniyyət yox, etnosların yaxud super etnosların mədəniyyəti tarixçilərin tədqiqat obyekti olmalıdır. Alimə görə dünya polisentrikdir, bu isə o deməkdir ki, hər bir etnos qeyri-adidir, əvəzolunmazdır.

Tarixin plüarist interpretasiyası olan sivilizasiyalar nəzəriyyəsi ümumdünya tarixi prosesinin dəqiq universal sxemlərini verə bilmir. Bir neçə yüzilliklkdir ki, inkişaf etsə də, hələ də tam təşəkkül tapmamışdır. Sivilizasiyalar nəzəriyyəsinin semantikası öz qeyri-müəyyənliyi, qeyri-dəqiqliyi ilə qonşu elmlərdən və və yaxud dünya görüşlərindən terminlər götürməsi ilə fərqlənir.

Gətirilən nümunələrdən görünür ki, sivilizasiya kimi müxtəlif struktur vahidləri anlaşılır. Bəzi müəlliflər üçün belə vahidlər birliklərdir (mədəni etnik), digərləri bu vahidlərdə cəmiyyətin inkişaf səviyyəsini görürlər. Bu gün sivilizasiyanın onlarca tərifi var. Bir qayda olaraq, buna görə onları emprik materialla uzlaşdırmaq, tədqiqat aləti etmək çətin olur. Buna görə də hər bir tarixçi konkret tədqiqatın kontekstində sivilizasiya dedikdə nəyi anladığını dəqiqləşdirməlidir.

Sivilizasiyanın vahid qəbul edilmiş tərifinin olmaması öz növbəsində sivilizasiya tiplərinin müəyyənləşdirilməsində də çətinlik yaradır. Sivilizasiyaların tipləri çox müxtəlifdir və onlar nəyin əsas kimi götürülməsi ilə müəyyən olunurlar.

Ən ümumi bölgü iki böyük makrobirlik: Qərb və Şərqdir. Hamı Qərb və Şərq inkişaf yollarının mövcudluğunu qəbul edir, yəni qərb və şərq mədəniyyət tipləri, qərb və şərq mentallığı var. Amerika sivilizasiyasını Qərb sivilizasiyasının bir növü hesab edirlər.

Hələ ən qədim zamanlardan Şərq və Qərb sivilizasiyaları bir - birindən fərqlənmişdir. Lap əvvəldən sivilizasiyanın spesifikası adamların əmək fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədar olmuşdur. Əmək fəaliyyətinə də öz növbəsində coğrafi mühit, əhalinin sıxlığı və digər amillər təsir göstərmişdir. Bir mərkəzdən su ilə təminatın idarəsinə əsaslanan süni suvarma əkinçiliyi Asiya istehsal üsulunun inkişafını bir növ həvəsləndirmişdir. Buna görə də bir rəhbərlik işin ictimai xarakieri, sosial imtiyazları, iyerarxiyası, mənəvi sahədə isə dünyanın sahibinə - Tanrıya (səmaya, günəşə) və onun yerdəki nümayəndələri sayılan hökmdara, hökmdarın nümayəndələri ağaya tabe olmaq xarakterik hal hesab olunurdu.

İctimai şüurun dini və fəlsəfi formalarının məzmunu, həmçinin cəmiyyətin digər dəyərlərinin mənimsənilməsində mühüm vasitə kimi istifadə edilməsi də sivilizasiyanın inkişafına böyük təsir göstərmişdir. Çində buddizm və konfusiçilik, Hindistanda buddizm və brahmanizm, yoqların fəlsəfəsi insanın bütün həyat fəaliyyətinin reqlamentləşdirilməsində həlledici rol oynamışdır. Qərb cəmiyyəti monolit kult struktura və tək hakimiyyəliliyin təsirinə az məruz qalmışdır. Qərb sivilizasiyası daha çox fəal surətdə elmin, incəsənətin və siyasətin təsiri altında dəyişmişdir. Şərq sivilizasiyası üçün maddi və mənəvi dəyərləri mənimsəmək, həmçinin avtoritar paternalizm, ümumi tabelik, dövlətdə, icmada, ailədə başçının qəbul edilməsi şəraitində istehsal səciyyəvidir.

İnsanın sözəbaxan, xeyirxah, ləyaqətli kimi formalaşması Şərq ölkələri adamının bütün həyat tərzinə öz möhürünü vurmuşdur. Bu həm də mədəniyyət və onun mənimsənilməsi üsullarına da öz təsirini göstərmişdir. Qərb sivilizasiyası üçün texnika və texnologiyanın sürətli inkişafı, predmet dünyasının və insanların sosial əlaqələrinin sürətlə dəyişməsi xarakterikdir. Qərb mədəniyyətində rasionallıq üstünlük təşkil edir.

Şərq və Qərb sivilizasiyaları bir-birinə qarşılıqlı təsir göstərmişdir. Bu təsirin nəticəsində öz mədəniyyəti əsasında yeni mədəniyyəti mənimsəməyən müxtəlif hibrid cəmiyyətlər yaranmışdır.

Amerika alimi C.Bell texnoloji yanaşma əsasında industriala (sənayeyə) qədərki, industrial və postindustrial sivilizasiyaları ayırır.

Texnikanın səviyyəsi bu və digər istehsal aləti tipinin, o cümlədən maşının yayılması dərəcəsindən asılıdır. Məsələn, m.ö. 100-50 - ci illərdə Misirdə "mühəndis" Geron "eolopil"", bir növ buxar maşını kəşf etmişdir və bu maşın məbədin ağır qapısını müəyyən məsafədən aça bilirdi. O zamanlar sorucu nasos, termometr və bir sıra başqa kəşflər də olmuşdu. Lakin qədim cəmiyyət hətta industriala qədərki cəmiyyətə çevrilməmişdir. Çünki ucuz qul əməyi bahalı texnikanın tətbiqinə imkan vermirdi. Horizontal su dəyirmanlarından buğdanı döymək üçün istifadə edilir, buxardan isə maraqlı oyuncaqları hərəkətə gətirmək üçün istifadə olunurdu.

İndustriala qədər sivilizasiyaya keyfiyyətcə yeni texnika xas idi. Su və yel dəyirmanları, onların ətrafında yaranan ağackəsən, mahud toxuyan, kağız istehsal edən dəzgahlar da qurulmuşdu. Burada əməyin ən ümumi bölgüsü baş verirdi ki, bu da öz növbəsində istehsal alətlərinin rəngarəngliyini tələb edirdi. Sənaye və kənd təsərrüfatı ilə yanaşı "üçüncü bölmə" adlandırılan bölmə də sürətlə inkişaf edir ki, bu da vəkillərin, notariusların, həkimlərin, universitet müəllimlərinin sayının artması ilə müşahidə olunur. Dağ-mədən sənayesi və digər sahələr inkişaf edir.

İndustriala qədərki sivilizasiya dövründə, xüsusilə, XV əsrdə elmi-texniki kəşflər atmosferi yaranır. Leonardo da Vinçidən sonra yüzlərlə italiyan "möcüzəli" maşınların layihələrini hazırlayır. Ancaq industriala qədərki sivilizasiyada da kəşflərin tətbiqi kütləvi xarakter almadı. Çünki ucuz işçi qüvvəsinin olması bahalı texnikanın tətbiqinə stimul yaratmırdı.

XVI - XVII əsrlərin nailiyyətləri və iqtisadi yüksəliş industrial sivilizasiyaya keçməyə təkan verdi. Texnikanın keyfiyyət dəyişikliyi təkcə onun özü ilə deyil, həm də iqtisadiyyatın inkişafı ilə bağlı idi.

Bazarın marağı və tələbat yeniliyə stimul yaradırdı. Kömür sənayesi digər sahələrin inkişafını stimullaşdırmış, buxardan geniş istifadə olunmağa başlanmışdır. İndustrial sivilizasiya cəmiyyətin bütün həyat tərzinin dəyişməsinə, o cümlədən kənd təsərrüfatının, nəqliyyatın, rabitənin, peşə vərdişlərinin, təhsilin, tərbiyənin və mədəniyyətin dəyişməsinə təsir göstərmişdir.

Bu gün dünya prostindustrial sivilizasiyaya daxil olmuşdur. Bu sivilizasiya üçün səciyyəvi olan maşınların mexaniki sistemi deyil, mikroenergetikaya, ən yeni intelektual texnologiyaya əsaslanan istehsalın avtomatlaşdırılmasıdır. Bu yeni texnika və texnoloji baza insan və cəmiyyətin bütün həyat tərzini dəyişir.



Postindustrial sivilizasiayanı "texnotronlu" və s. sivilizasiya da adlandırırdılar. İndustriala qədərki, industrial və postindustrial sivilizasiyaların hər biri öz texniki səviyyəsinə, texnikanın mənimsənilməsinin səciyyəvi üsullarına malikdir. Texniki sivilizasiyaların hər biri üçün texnikanın və texnoloji subyekt kimi insanın inkişafının öz səviyyəsi səciyyəvidir.

Dövri sivilizasiyalar, nəzəriyyələr və lokal sivilizasiyalar nəzəriyyələri tarixi müxtəlif şəkildə görməyə imkan verir. Dövri nəzəriyyədə ümumi - bütün bəşəriyyət üçün ümumi inkişaf qanunları ön plana çıxır. Lokal sivilizasiyalar nəzəriyyəsində isə - fərdilik, tarixi prosesin müxtəlifliyi ön plana çıxır. Beləliklə, hər iki nəzəriyyənin öz üstünlükləri var və onlar bir-birlərini qarşılıqlı surətdə tamamlayırlar. Dəfələrlə onları birləşdirmək cəhdləri olsa da, hələ bu sahədə uğur əldə edilməmişdir. Halbuki, tarixi öyrənməyin məhz bu yolu daha məhsuldar olardı.

Hələlik, tarixi öyrənməyin "universal" sxemi yaradılmadığından biz oxucuya təqdim etdiyimiz bu kitabda bu günədək mövcud olan tarixi nəzəriyyələrin müsbət müddəalarından faydalanmaqla əsas vurğunu tarixi faktların nəqlinə yönəltmişik. Ola bilsin ki, ikinci kitabın sonunda və ya "Ümumi tarix"ə əlavə bir kitab şəklində biz dünya sivilizasiyalarının tarixi haqqında ətraflı məlumat verək.

**Tarixdə təqvim.** Tarixi hadisələrin zaman ölçüsü adətən müəyyən bir başlanğıc nöqtəsindən hesablanır. Başlanğıc nöqtəsi həqiqi və əfsanəvi tarixi hadisə ilə bağlı ola bilər. Məsələn, qədimlərdə bir çox ölkələrdə insanlar təqvimi dünyanın yaranışından hesablayırdılar. Hazırda dünyanın əksər ölkələrində ümumi bir təqvim qəbul edilmişdir. Bu təqvimin başlanğıcı əfsanəvi şəxsiyyət - xristian dininin banisi, həm də xristianların Tanrının oğlu saydıqları İsanın (İusus Xristos) anadan olduğu ildən sonra gələn ilin yanvar ayının 1-dən hesablanır. Rəvayətə görə İsa peyğəmbər eramızdan əvvəl 1-ci ilin dekabrın 24-də anadan olmuşdur. Həmin hadisə müsəlman aləmində "milad" (yəni "anadan olma") sözü ilə də əvəz olunur. Həmin ildən bu günə kimi olan müddət bizim era, yaxud miladdan sonra adlanır. Başlanğıc nöqtəsinə qədər baş vermiş hadisələrdən danışarkən "eramızdan (yaxud miladdan) öncə" anlayışı işlədilir.

Tarixdə hər hansı bir hadisənin vaxtı bildirilərkən, o hadisənin miladdan öncə, ya da miladdan sonra olub-olmadığını bilmək və tarixləri ona görə müəyyən etmək lazımdır. Miladdan öncə baş vermiş hadisələrin illəri qeyd edilərkən, ilin önünə miladdan öncə (m.ö.) yaxud eramızdan əvvəl (e.ə.) sözlərini yazmaq lazımdır (Məsələn, miladdan öncə (eramızdan əvvəl) 66-ci ildə alban çarı Oroyz ilə Roma sərkərdəsi Pompeyin qoşunları arasında vuruşma olmuşdur). Miladdan sonra baş verən hadisələrin ilinin önünə bu deyimi yazmağa və deməyə ehtiyac yoxdur. Məsələn, Səfəvilər dövlətinin əsası eramızın (yaxud miladdan sonra) 1501-ci ilində qoyulmuşdur yox, sadəcə 1501-ci ildə qoyulmuşdur demək lazımdır.

Bütün islam aləmində olduğu kimi Azərbaycanda da uzun müddət hicri təqvimi işlənmişdir (hal-hazırda da dini bayramlar, mərasimlər bu təqvim üzrə qeyd olunur).

Hicrət ərəbcə köç deməkdir. Bu təqvimin başlanğıcı Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçdüyü gündən aparılır. Bu hadisə miladi təqvimin 622-ci ilin 20 sentyabr günündə olmuşdur və hicri təqviminin məhərrəm ayının 1-nə düşür.

Milad təqvimi ilə hicrət təqviminin başlanğıcları arasında 622 il fərq vardır. Ancaq hər iki təqvimdə istifadə olunan illərin günlərinin sayı fərqli olduğundan (milad təqvimində günəş ilindən istifadə olunur və astronomik ilə daha yaxındır. Bu, Yerin Günəş ətrafında bir tam dövrə vurmasına - 365 gün 6 saata bərabərdir. Buna görə də milad təqvimində illərin uzunluğu 3 il dalbadal 365 gün, dördüncü il isə 366 gün olur. Hicri təqvimdə ay ilindən istifadə olunur. Ayın Yer ətrafına bir tam dövrə vurması 29,5 gün çəkir və ay ilinin bir ayı hesab olunur. Bir ay ili (12 ay) 354 gündən ibarət olur. Ay hicri təqvimində il astronomik ili tam əks etdirmədiyindən aylar ilbəil yerlərini dəyişirlər) ay ili günəş ilindən hər il 11 gün irəli getdiyi üçün hicri təqvimi də 33 ildə bir il irəli getmiş olur. Bəzi ölkələrdə, məsələn İranda Günəş hicri təqvimindən istifadə edilir. Bu təqvimdə illər 365 gün olur, ancaq başlanğıcını miladın 622-ci ilindən

Hörmətli oxucu,

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

